UOT 024/025:004

**Ədibə İsmayılova**
*Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanası,*
*xidmət işləri üzrə direktor müavini*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun*
*dissertantı*
oxucu_xidmet@anl.az

# KİTABXANA-İNFORMASİYA XİDMƏTİ PROSESLƏRİNİN ELEKTRONLAŞDIRILMASI GÜNÜN TƏLƏBİDİR

**Açar söz:** *elektron kitabxana, elektron resurs, elektron kataloq, analitik məlumat bazası, açıq kitabxana*
**Ключевые слова:** *электронная библиотека, электронный ресурс,электронный каталог, информационно-аналитическая база, открытая библиотека.*
**Keywords:** *e-library, e-resource, e-catalogue, analytical database, open library*

Bu gün informasiya-kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına güclü təsir göstərən əsas amillərdən birinə çevrilmişdir. Son illərdə cəmiyyətin sənəd-informasiya təminatının ödənilməsində informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsi sahəsində ciddi addımlar atılmışdır və sosial institut, elm, təhsil, mədəniyyət, tərbiyə, informasiya müəssisəsi kimi kitabxanalar da bu istiqamətdə mühüm işlər görürlər. Kompüterləşdirilmiş (informasiyalaşdırılmış) kitabxana sistemlərinin yaranması və formalaşması əhaliyə kitabxana xidmətinin təşkili qarşısında olduqca yeni, ənənəvi iş metodları ilə yanaşı, müasir xidmət metodlarının yaradılmasını tələb edir. Müasir dövrlə, şəraitlə ayaqlaşa bilən indiki oxucunun sorğularına cavab verə bilən metodların və üsulların hazırlanması təmin edilməzsə, kitabxanalar öz oxucularına peşəkar xidmət etməkdən məhrum olar, öz oxucularını itirər.

Kitabxanaçılar nəzərə almalıdırlar ki, müasir informasiyalaşdırılmış cəmiyyətdə kitabxana xidmətinin forma və üsulları xeyli yeniləşmiş, ənənəvi forma və üsullardan tamamilə fərqlənən, bilavasitə yeni informasiya texnologiyasına əsaslanan iş formaları və üsulları meydana gəlib formalaşmışdır. Müasir kıtabxana yeni forma və üsullardan istifadə etmədən oxucuya kitabxana xidmətini dövrün tələbləri səviyyəsində təşkil edə bilməz. Məhz buna görə də kitabxanaların qarşısında müasir informasiya texnologiyasına yiyələnmək, onu kitabxana təcrübəsinə, oxuculara xidmət işinin təşkili prosesinə tətbiq etmək vəzifəsi qoyulmuşdur. İnformasiya texnologiyalarının kitabxanalara tətbiq edilməsi kitabxana fondlarına daxil olan ədəbiyyatın təbliğinə, yeni istifadəçilərin cəlb olunmasına, oxucularda mütaliə marağının artırılmasına,yeni forma və üsullardan ibarət xidmət növlərinin tətbiq olunmasına şərait yaradır.Kitabxana işinə yeni innovasiyaların tətbiqi, kitabxanaların kompyuterləşdirilməsi prosesi kitabxana-informasiya xidmətinin yeni mərhələyə qalxmasına səbəb olur.

Bu gün dünya miqyasında sənəd-kommunikasiya sistemlərinə yeni informasiya texnologiyalarının tətbiqi milli kitabxanaların fəaliyyətinə də güclü təsir göstərir. Hal-hazırda milli kitabxanalar ölkə üçün mühüm əhəmiyyətə malik bir informasiya, sənəd-kommunikasiya, mədəniyyət müəssisəsi, milli intellektual sərvəti qoruyan vacib bir qurum, ölkənin kitabxana sisteminin aparıcı kitabxanası, başlıca olaraq cəmiyyətin informasiya təminatını həyata keçirən sosial institutdur. Zaman keçdikcə, informasiyanın yazılmasının, saxlanmasının, ötürülməsinin, istifadəsinin yeni-yeni vasitələrinin meydana gəlməsi milli kitabxanaların ölkə, millət üçün əhəmiyyətini nəinki azaldır, hətta daha da artırır. Bütün bu deyilənləri Azərbaycan Respublikasının baş kitabxanası olan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası barədə də söyləyə bilərik. Son illər Azərbaycan Milli Kitabxanasında istər iş proseslərinə, istərsə də xidmət sahələrinə innovasiyaların tətbiqi onu dünyanın aparıcı Milli kitabxanaları sırasına çıxarmışdır.

Azərbaycan Milli Kitabxanası dünyada şöhrət tapan ən böyük milli kitabxanalardan və ən iri kitabsaxlayıcılardan biridir. AMK 1922-ci ildə yaradılmış, rəsmi açılışı isə 1923-cü ilin may ayının 23-də olmuşdur. 1939-cu ildə AMK-na görkəmli mütəfəkkir, dramaturq və maarifçi Mirzə Fətəli Axundovun adı verilmişdir. Kitabxana yarananda onun fonduna İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsinin və Bakı İctimai Cəmiyyətinin kitabxanalarının fondlarından 5000 nüsxə kitab daxil olmuşdur. Milli Kitabxananın fondunda hal–hazırda 5 milyona yaxın ədəbiyyat vardır. Kitabxananın daimi oxucularının sayı 143627, virtual oxucularının sayı isə 1 milyondan artıqdır. Milli Kitabxanada 24 şöbə, 41 bölmə, 14 oxu zalı fəaliyyət göstərir.

AMK kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində aparıcı müəssisə, ölkənin bütün kitabxanaları üçün elmi-metodiki mərkəz, oxuculara kompleks kitabxana-biblioqrafiya, informasiya xidməti göstərmək, kitabxanalararası abonement, milli və tövsiyə biblioqrafiyası, beynəlxalq və ölkədaxili depozitar mərkəz funksiyalarını yerinə yetirir.

Zəngin kitab fonduna malik olan Milli Kitabxanada Azərbaycan kitab mədəniyyətinin ilk nümunələri – daşbasma üsulu ilə çap olunmuş və ilk çap kitabları, XIX əsrin dövri mətbuat nümunələri toplanmışdır. Kitabxananın Nadir kitablar və kitabxana muzeyi şöbəsində dünyanın 20-yə yaxın dilində ən qədim kitablar, müxtəlif elm sahələrinə aid fundamental tədqiqat əsərləri, qiymətli sorğu ədəbiyyatları qorunub saxlanılır. Miniatür kitab kolleksiyası, nəfis tərtibatlı kitab nüsxələri oxucularda böyük maraq doğurur. Kitabxananın arxiv fondunda mətbuat tariximizin misilsiz bir hissəsini təşkil edən 91 adda qəzetin 1875-1930–cu illəri əhatə edən böyük bir dövrünün əsli və fotosurətləri, eləcə də Azərbaycan mətbuatının inkişafında mühüm rol oynayan jurnallar qorunub saxlanılır.

Son illər informasiya texnologiyalarının Azəbaycan Milli Kitabxanasına tətbiqi kitabxana fonduna daxil olan ədəbiyyatın təbliğinə, yeni istifadəçilərin cəlb olunmasına, oxucularda mütaliə marağının artırılmasına,yeni forma və üsullardan ibarət xidmət növlərinin tətbiq olunmasına şərait yaratmışdır.Kitabxana işinə yeni innovasiyaların tətbiqi, kitabxananın kompyuterləşdirilməsi prosesi kitabxana-informasiya xidmətinin yeni mərhələyə qalxmasına səbəb olmuşdur.Hazırda Milli Kitabxanada oxuculara kitabxana

xidmətinin təşkili ilə əlaqədar bütün iş prosesləri tam şəkildə avtomatlaşdırılmışdır.Kitabxanada dünyanın ən böyük və zəngin kitabxanalarında daha çox tətbiq olunan avtomatlaşdırılmış kitabxana-informasiya sistemi VİRTUAL proqramı tətbiq olunmuşdur.İnformasiya-kommunikasiya texnologiyalarının kitabxana işinə tətbiqi ilə əlaqədar olaraq AMK-da yeni şöbələr və bölmələr açılmışdır. Yeni şöbə və bölmələrin yaradılması ilə əlaqədar bir çox ənənəvi iş sahələri yeni texnologiyalarla təchiz olunmuş, ənənəvi kataloq sistemi elektron kataloqla əvəzlənmiş, elektron kataloqla yanaşı elektron kitabxana yaradılmışdır.Kitabxananın 3 dildə fəaliyyət göstərən saytı (www.anl.az) vasitəsilə oxuculara elektron xidmət həyata keçirilir. Milli Kitabxananın saytından istifadə etməklə oxucular məlumat bazalarından yararlanmaq, Milli Kitabxananın nəşrlərindən istifadə etmək, elektron kataloqda və elektron kitabxanada, həmçinin dünya ölkələrinin kitabxanalarında axtarış aparmaq imkanı əldə edirlər.Azərbaycan Milli Kitabxanasının nəzdində Elektron kitabxananın yaradılmasında başlıca məqsəd oxuculara xidmət işində zaman və məkan probleminin aradan qaldırılmasından, kitabxananın fondunda mühafızə olunan qiymətli nəşr məhsullarının konservasiyasının təmin olunması və onları əsaslı surətdə mühafizə etməkdən, fondun elektron versiyasını hazırlamaqdan və qiymətli kitab fondlarından onlayn rejimdə məsafədən istifadənin təşkilindən, Azərbaycan elminin nailiyyətlərini İnternet vasitəsilə geniş təbliğ etməkdən və oxucuların informasiyaya olan tələbatını operativ şəkildə təmin etməkdən ibarətdir. Qısa müddət ərzində informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş Azərbaycan Milli Kitabxanasında sistemli iş aparılmış, avtomatlaşdırılmış kitabxana idarəetmə sistemi tam tətbiq edilmiş, zəngin elektron resurslar yaradılmışdır. İndi bilavasitə kitabxanaya gələn oxuculara Elektron kitabxananın resursları lokal şəbəkə - İNTRANET vasitəsilə, uzaq məsafəli istifadəçilərə isə qlobal şəbəkə - İNTERNET vasitəsilə təqdim olunur. Kitab, qəzet və junalların elektron versiyaları ilə yanaşı, Milli Kitabxananın fondunda olan musiqi ədəbiyyatının, not nəşrlərinin elektron versiyalarının bazaları da yaradılmış və oxucuların istifadəsinə verilmişdir.Bu baza kitabxananın saytında oxuculara "Musiqi kitabxanası"bölməsində təqdim olunur.Son illər Milli Kitabxananın fondunda olan Azərbaycan klassiklərinin musiqi əsərləri yazılmış qrammofon vallarının informasiya daşıyıcılarına köçürülməsi işi həyata keçirilmiş və elektron bazası yaradılımşdır.Kitabxanada 100-dən çox qəzet və jurnalda dərc olunan materialların tam elektron mətnləri mövzu və predmetlər üzrə qruplaşdırılaraq elektron kataloqun analitik məlumat bazasına daxil edilir. Bununla da kitabxananın oxucuları nəinki dövri mətbuat materiallarının biblioqrafık təsvirlərini, hətta onların tam elektron mətnlərini də kitabxananın saytı və elektron kataloqu vasitəsilə açıb oxuya bilirlər.Bu gün kitabxananın oxucuları və eləcə də dünya miqyasında Azərbaycanla maraqlanan bütün insanlar Milli Kitabxananın saytı və elektron kataloqu vasitəsilə zaman və məkan problemi olmadan Milli Kitabxananın nəinki kataloq və fondlarına daxil olaraq ondan sərbəst istifadə edə bilirlər, hətta onun tammətnli elektron məlumat bazalarından da bəhrələnirlər. Azərbaycan Milli Kitabxanasının Elektron kataloqunun məlumat bazası Avropa Elektron Kitabxanasına daxil edilmişdir. Kitabxananın oxucuları Avropanın 50-dən çox

kitabxanasının fondlarında və kataloqlarında birbaşa axtarış aparmaq imkanı əldə etmişlər.

Milli Kitabxananın son dövrlərdə göstərdiyi əsas xidmətlərdən biri Elektron dissertasiya fondunun yaradılması olmuşdur. Bu gün artıq respublikamızda müdafiə olunan dissertasiyaların elektron bazası formalaşmış və bu iş xronoloji ardıcıllıqla davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013 cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın 2.2.18-ci maddəsini əsas tutaraq M.F.Axundov adına Milli Kitabxana və Rusiya Dövlət Milli Kitabxanası arasında birgə əməkdaşlıq çərçivəsində imzalanan müqaviləyə əsasən 2008-ci il sentyabr ayının 12-də Milli Kitabxananın Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsində Rusiya Dövlət Milli Kitabxanasının Elektron Dissertasiya Fondunun virtual oxu zalının açılışı olmuşdur. Rusiya Dövlət Milli Kitabxanasının Elektron Dissertasiya Fondunun virtual oxu zalı açıldığı zamandan bu günə qədər alimlərimiz, ziyalılarımız tərəfindən müntəzəm olaraq istifadə olunur və çox böyük razılıqla qarşılanir. Hal-hazırda Rusiya Dövlət Kitabxanasının Elektron dissertasiya zalından 913 000 nüsxədən çox tam mətnli dissertasiya və avtoreferat oxucularımızın istifadəsindədir.

Azərbaycan Milli Kitabxanası respublikanın bütün kitabxanalarına, eləcə də bütün oxuculara və internet istifadəçilərinə virtual rejimdə xidmət göstərir. Kitabxananın saytında "Metodik xidmət", "Biblioqrafik sorğu" və " Virtual sifariş" onlayn xidmət növləri yaradılmışdır. Hər bir kitabxana işçisi, müxtəlif oxucular, istifadəçilər sorğularını Milli Kitabxanaya ünvanlayır və ən qısa müddətdə cavab ala bilirlər.Milli Kitabxana hər il kitabxana işinin bu və ya başqa məsələlərinə dair xeyli miqdarda metodik vəsaitlər nəşr edir və region kitabxanalarına göndərir. Azərbaycan Milli Kitabxanası "Yeni kitablar", "Birillik Azərbaycan Kitabiyyatı", "Azərbaycan kitabı", "Mədəniyyət, incəsənət, turizm və ədəbiyyatşünaslıq haqqında yeni ədəbiyyat" adlı biblioqrafik informasiya göstəricilərini, hər il "Əlamətdar və tarixi günlər təqvimi"ni, Azərbaycanın görkəmli şəxsiyyətləri silsiləsindən, eyni zamanda digər mövzulara həsr olunmuş fundamental biblioqrafik vəsaitlər nəşr edir.

Azərbaycan Milli Kitabxanasında aparılan avtomatlaşdırma prosesində rus dilində olan sistemli kataloqların retrokonversiya edilməsi işini xüsusi qeyd etmək lazımdır.Kitabxanada rus dilində ədəbiyyatın sistemli kataloqunun retrokonversiyası həyata keçirilmiş, skan olunmuş kartoçkalar elektron bazaya yerləşdirilmişdir. Bu proses zamanı kataloq kartoçkaları, onun şöbələrini, bölmələrini, ayrı-ayrı rubrikalarını göstərən kataloq ayrıcları, elm sahələrini əhatə edən başlıqlar toxunulmaz olaraq saxlanılmışdır. Bu gün Milli Kitabxananın fondunda olmayan ədəbiyyatı dünya kitabxanalarından əldə etmək üçün bir sıra iri kitabxanalarla ikitərəfli müqavilələr imzalanmışdır. Bu müqaviləyə əsasən dünya kitabxanalarından müxtəlif ədəbiyyatlar oxucuların sifarişi əsasında "Kitabxanalararası abonement və sənədlərin elektron çatdırılması" bölməsi vasitəsilə həyata keçirilir.

Kitabxananın oxu zallarında azərbaycan və rus dillərində "Azərbaycan Respublikasının qanunvericiliyi" onlayn məlumat bazası www.qanun.info-(Azərbaycan dilində) www.consultinq.minimax.az- (Rus dilində), zəngin axtarış imkanlarına malik, dünyanın və Rusiyanın aparıcı elibrary.ru elektron elmi

kitabxanasının rusdilli informasiya ehtiyatları və başqa məlumat bazaları kompüterlərə yüklənərək oxucuların istifadəsinə verilmişdir.

2016-cı ildə Azərbaycan musiqisinin dünyada və respublikada geniş miqyaslı təbliğinə nail olmaq məqsədilə Mədəniyyət və Turizm Nazirliyi və Milli Kitabxana tərəfindən "Azərbaycan musiqi irsinin dünyada təbliği" adlı birgə layihə həyata keçirilmişdir. Azərbaycan Milli Kitabxanasının əməkdaşları beynəlxalq musiqi saytı olan "Petruççi Musiqi kitabxanası"nda (www.imslp.org) Azərbaycan xalq mahnıları və bəstəkarlarının 300-dən çox musiqi əsərinin notlarını, habelə Azərbaycanın korifey ifaçılarının səs yazılarını mp-3 formatında yerləşdirmişlər. Son illər elektron kitabxananın təkmilləşdirilməsi məqsədilə Milli Kitabxana tərəfindən xüsusi proqram işlənib hazırlanmışdır. Bu proqram vasitəsilə kitabların elektron resurslarına Milli Kitabxananın holoqramı vurulur (zəif fonda "Milli Kitabxana" sözü yazılır), elektron resurs kodlaşdırılır ki, bu da elektron kitabxanada yerləşdirdirilən kitabların müəllif hüquqlarının qorunmasını təmin edir. Müəllif hüquqları qorunan kitabların surətinin çıxarılmasına, elektron daşıyıcılarına (fləş-kart, CD disk və s.) köçürülməsinə imkan vermir.

Azərbaycan Milli Kitabxanası oxucuların elektron-informasiya tələbini təmin etmək məqsədilə daima yeni layihələr həyata keçirir. Son layihələrdən biri Açıq Kitabxana layihəsidir. Gənclərin fəal mütaliəyə cəlb olunması, mütaliə mədəniyyətinin formalaşdırılması məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin və Milli Kitabxananın birgə layihəsi əsasında 2016-cı ilin iyul ayında Milli Kitabxananın nəzdində həftənin bütün günləri fasiləsiz 24 saat fəaliyyət göstərən "Açıq Kitabxana-sərbəst mütaliə məkanı" yaradılmışdır.Açıq kitabxanada oxucuların elektron-informasiya xidmətlərindən yararlanması üçün də əlverişli şərait yaradılmışdır. Burada Azərbaycan Milli Kitabxanasının Elektron kataloqundan, Elektron kitabxanasından, Azərbaycan ədəbiyyatının virtual kitabxanasından və digər elektron kitabxanalardan oxucuların istifadəsi üçün kompüter avadanlıqları və Wi-Fi şəbəkəsi quraşdırılmışdır. Açıq Kitabxanada Azərbaycanla yanaşı, Rusiyada, Türkiyədə və digər ölkələrdə çap olunan kitabları onlayn sifariş etmək imkanı yaradılmışdır. Burada elektron xidmətlərin genişləndirilməsi, oxuculara göstərilən xidmətin səviyyəsinin daha da artırılması məqsədilə Açıq kitabxananın saytı fəaliyyət göstərir.Sayt vasitəsilə oxucular Açıq kitabxananın virtual sifariş xidmətlərindən yararlanır, onun fondunda olan kitablarla onlayn tanış olur, lazım gəldikdə seçdikləri kitabı sifariş edə, eyni zamanda burada keçirilən tədbirlər haqqında məlumat əldə edə bilirlər. Həmçinin oxucuların dünya və respublika kitabxanalarının saytlarına giriş, internetdən kitab satışı həyata keçirən mərkəzlərlə əlaqə imkanı vardır.

Azərbaycan Milli Kitabxanası oxucuların elektron-informasiya tələbinin ödənilməsi istiqamətində apardığı işi daima təkmilləşdirir və genişləndirir.

## Ədəbiyyat :

1. İsmayılova, Ə. Oxuculara xidmətin əsas istiqamətləri, innovativ yeniliklərin tətbiqi təcrübəsi /Ə.İsmayılova; red. K.Tahirov; rəyçi.: G.Səfərəliyeva; Azərbaycan Milli Kitabxanası, 2016-55 s.
2. Azərbaycan Milli Kitabxanasının hesabatları.

3. Исмайлова, А. Информационные запросы общества и новые формы обслуживания читателей в Азербайджанской национальной библиотеке им. М.Ф.Ахундова /А. Исмайлова //Вестник Библиотечной Ассамблей Евразии.- 2015.- №3.- С. 50-52
4. Tahirov, K. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: dərs vəsaiti /K.Tahirov ; elmi red. A.Xələfov ; rəyçi.: K.Aslan, P.Kazımi ; Azərb. Resp. Təhsil Nazirliyi, BDU. - Bakı: Bakı Universiteti, 2013. - 212 s.
5. Tahirov, K. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi: 1923-2008-ci illər /K.Tahirov ; elmi red. A.Xələfov ; ixtisas red. A.Əliyeva-Kəngərli; red.: N.İsmayılov, K.Aslan. - Bakı : [Ulu], 2008. - 218 s.

***Адиба Исмайлова***

## ЭЛЕКТРОНИЗАЦИЯ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОГО ОБСЛУЖИВАНИЯ – НАСУЩНОЕ ТРЕБОВАНИЕ ВРЕМЕНИ

***Резюме***

В статье говорится о внедрении информационных технологий в работу библиотек, о насущных задачах библиотек, о процессах работы, проводимых в Национальной Библиотеке Азербайджана им. М.Ф.Ахундова по обеспечению электронно-информационных запросов читателей.

***Adiba Ismaylova***

## ELECTRONIZATION OF LIBRARY-INFORMATION SERVICES IS THE REQUIREMENT OF THE TIME

***Summary***

The article provides information about the application of information technologies in libraries, new duties of libraries and the works done by Azerbaijan National Library in order to meet users’ e-information needs.

UOT 02

**Validə Həsənova**
*M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası*
valide_a@yahoo.com

# BİBLİOMETRİYA SƏNƏD-İNFORMASİYA AXININ TƏHLİLİİ MODELİ KİMİ

**Açar sözlər:** *bibliometriya, beynəlxalq eletkton-informasiya bazaları, bibliometrik tədqiqatlar,emprik qanunlar*
**Ключевые слова:** *библиометрия, международных электронно-информационных баз, эмпирические законы*
**Key words:** *bibliometry, international electronic information bases, bibliometric studies, empirical laws*

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı Aygün Hacıyevanın Almaniyada fəaliyyət göstərən "LAP LAMBERT Academic Publishing" nəşriyyatının təklifi üzrə (rus dilində) "Bibliometriya sənəd-informasiya axınının təhlili modeli kimi" adlı kitabı işıq üzü görmüşdür (1).

Günümüzdə bir çox elm sahələri vardır ki, onların inkişafı daha dinamik nəzərə çarpır və onların təcrübi fəaliyyətdə tətbiqi dövrün tələbindən irəli gəlir. Beynəlxalq kitabxanaşünaslıqda bibliometriya adlı yeni elm sahəsi yaradılmış və artıq müxtəlif elmi istiqamətlərdə öyrənilmişdir. Ölkəmizdə bu fəaliyyət sahəsi hələlik AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun Elektron Kitabxanasında tətbiq edilməkdədir.

Bibliometriya yunan sözüdür. "Biblion"- kitab və "metria" – "ölçürəm" mənasını ifadə edir. Bibliometriya informasiyanın sənədlə mübadiləsi ilə əlaqədar kitabxana, biblioqrafiya, informasiya və digər fəaliyyət növlərində kütləvi halların quruluşunu, qarşılıqlı əlaqəsini və dinamikasını kəmiyyət metodları ilə öyrənən bir elm sahəsidir.

Son zamanlar sənəd kommunikasiyalarının inkişafı mərhələlərlə sənəd-informasiya axınının təhlilinin təbii vacibliyini tələb edir. Sənəd-informasiya axınının təhlili obyektin inkişaf qanunauyğunluqlarını müəyyənləşdirmək, onları qiymətləndirməyi öyrənmək və nəticə olaraq bu prosesləri idarə etməyə şərait yaradır.

A.Hacıyevanın "Bibliometriya sənəd-informasiya axınının təhlili modeli kimi" adlı kitabı "Kitabxana təcrübəsində bibliometrik tədqiqatlardan istifadə", "Kitabxanalar və informasiya mərkəzlərində bibliometrik təhlil metodları əsasında sənəd-informasiya axınının perspektiv inkişafının qiymətləndirilməsi", "Bibliometriyanın emprik qanunları", "Bibliometrik xəritəçəkmə", "Bibliometrik tədqiqatlar üçün beynəlxalq elektron informasiya bazaları", "Sənəd-informasiya axınının digər metrik təhlil istiqamətləri" kimi mühüm bölmələrdən ibarətdir.

Hazırda bibliometriyanın ölkəmizin kitabxanalarında tətbiqinin gecikməsi "onilliklər"lə nəzərə çarpsa da artıq bu sahədə demək olar ki, yavaş-yavaş ilkin addımlar atılmaqdadır. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun

doktorantı A.Hacıyevanın bu istiqamətdə yerinə yetirdiyi tədqiqat işi də bunun mühüm göstəricisidir. Müəllif bu əsərində “bibliometriya” anlayışına aydınlıq gətirərək, kitabxana fondlarının formalaşmasında onun rolu və funksiyalarını araşdırmış, bütün dünyada bibliometrik elmi tədqiqatların həyata keçirilməsində çox mühüm rol oynayan, lakin olduqca az öyrənilmiş kitabxanaların iştirakı və əhəmiyyətini elmi-nəzəri tələblər səviyyəsində tədqiq etmişdir.

Əsər günümüzdə kitabxana-informasiya elmləri sferasında tədqiqatların ən aktual istiqamətlərindən birinə həsr olunmuşdur. Artıq beynəlxalq informasiya müstəvisində bibliometriya elminin inkişafı və bütün növ nəşrlərin kəmiyyətcə sürətli artımı kitabxanalarda sənəd-informasiya axınlarının statistik təhlili sisteminin təşkili və kompleks əhatəliliyini zərurətə çevirir. Bibliometriya ədəbiyyatın analitik-sintetik işlənməsinin inkişafının keyfiyyətcə yeni forması kimi kitabxanaşünaslıq nəzəriyyəçi və təcrübəçilərinin diqqətini informasiyanın, onun qiymətləndirilməsi metodikasının və tədqiqatının səmərəli yollarının daha rasional seçilməsinə istiqamətləndirir.

Müəllif kitabında bibliometrik xəritələrin hazırlanması, elektron kitabxanalarda sosial şəbəkələr, bibliometrik üsullar vasitəsilə elektron kitabxanalarda xidmətin keyfiyyətinin yüksəldilməsi, bibliometrik üsulların elektron kitabxana mühitində tətbiqi imkanlarının öyrənilməsi və s. kimi istiqamətləri də tədqiq etmişdır. Məlumdur ki, elmi istiqamətlərin vəziyyətinin və inkişaf tendensiyalarının təhlili zamanı daha çox sənəd-informasiya axınının qiymətləndirilməsinin kəmiyyət metodlarından istifadə edilir.

Sonda müəllif apardığı araşdırmalardan bu qənaətə gəlir ki, bütün bibliometrik proseslər -kitabxana-informasiya, kitabxana-biblioqrafiya xidmətinin bibliometrik tədqiqinin nəticələrinin istifadəsinə əsaslanan yeni nəzəri-təcrübi formalar yaradır. İnformasiya bazasına və müxtəlif axtarış texnologiyalarına malik olan kitabxanalar bibliometrik tədqiqatların həyata keçirilməsi üçün geniş imkanlara malikdir.

A.Hacıyeva bu əsərində bir sıra yeniliklərə də imza atmışdır. İlk dəfə olaraq müəllif bibliometrik tədqiqatların aparılmasında kitabxanaların iştirakını, əhəmiyyətini xüsusi olaraq vurğulamışdır. Kitabxanaların fəaliyyət səviyyəsinin yüksəldilməsi məqsədilə onların keçdiyi inkişaf mərhələlərini müəyyənləşdirmişdir. Bibliometriyanın empirik qanunlarına nəzər salaraq, onların mahiyyətini açmış, ən çox istinad edilən beynəlxalq elektron məlumat bazaları, istinad sistemlərinin təhlil üsullarını öyrənərək ümumiləşmələr aparmışdır.

Bibliometriyanın informetriya, elmmetriya, vebometriya, kibermetriya və altmetriya ilə qarşılıqlı əlaqəsi, elmmetriya və bibliometriyanın metodlarının tətbiqi, bibliometrik tədqiqatlar aparmağa imkan verən xarici informasiya bazaları, xarici ölkələrin milli istinad indeksləri haqda danışmış, bibliometrik göstəricilərin tədqiqinin vacibliyini elmi cəhətdən əsaslandırmışdır.

Aparılmış çox istiqamətli araşdırmanın elmi və təcrübi əhəmiyyətinin, yeniliklərinin ölkə kitabxanalarında zamanla tətbiq olunacağı və uğurlu nəticələrin əldə ediləcəyi qənaətindəyik.

**Ədəbiyyat :**

1. Гаджиева А.З. Библиометрия как модель анализа документально-информационного потока.- Saarbrücken, Deutschland /Германия: LAP Lambert Academic Publishing, 2017.- 60 с.

***Валида Гусейнова***

## БИБЛИОМЕТРИЯ КАК МОДЕЛЬ АНАЛИЗА ДОКУМЕНТАЛЬНО-ИНФОРМАЦИОННОГО ПОТОКА

**Резюме**

В статье рассматривается книга, посвященная библиометрии, ее эмпирическим законам и анализу международных электронных информационных баз, которые позволяют проводить фундаментальные библиометрические исследования.

***Valida Huseyinova***

## BIBLIOMETRY AS A MODEL FOR ANALYZING THEDOCUMENT INFORMATION FLOW

**Summary**

The article deals with a book devoted to bibliometry, its empirical laws, and an analysis of international electronic information bases that enable fundamental bibliometric studies.